**UOT 82-31**

# ŞÜUR AXININDA ANAXRONİZMLƏRİN ROLU
***(Virciniya Vulfun "Missis Dellouy" və "Mayaka Doğru" romanları əsasında)***

**Günel MƏHƏMMƏDFATEHLİ***

Məqalə redaksiyaya daxil olmuşdur: 2 mart 2025; çapa qəbul edilmişdir: 24 may 2025; online-da çap edilmişdir: 25 iyun 2025.

Received: 2th of March, 2025; accepted: 24th of May, 2025; published online: 25th of June, 2025.

**Açar sözlər:** *şüur axını texnikası, anaxronizm, analepsis, prolepsis, Virciniya Vulf.*

## Giriş

Şüur axını texnikası modernist ədəbi cərəyan nümayəndələrinin yaradıcılığında özünəməxsus yer tutur. Ali modernizmin siması olan Virciniya Vulfun ədəbi irsi şüur axını metodunun nəzəri xüsusiyyətlərinin praktik göstəricisidir. Bu texnikanın mahiyyəti həm bədii surətlər və obrazların təhkiyəsində, təsvirində, həm də zaman-məkan məfhumunda əks olunur. Virciniya Vulfun "Missis Dellouy" və "Mayaka Doğru" romanlarında şüur axını texnikası zaman anlayışının qatlarında öz dəqiqliyini qoruyur. Buna görə də bu metod zaman, müddət, vaxt məfhumunun fiziki və xronoloji təsəvvüründən fərqli qatlara keçir. Yəni fizika qanunlarında yer alan zaman və məkan bir qanun çərçivəsində qalmır. A.Eynşteynin nisbilik nəzəriyyəsi, kvant fizikası və Freyd, Yunqun psixoanalitik nəzəri-elmi görüşləri şüur aktının zaman və məkan sferasında yeni konsepsiyalarını yaradır. Virciniya Vulfun xüsusi metodu olan tunel prosesi sayəsində zamanın qatlarına keçid edilir. Həmin proses isə xaosdan kosmosa çevrilmənin yaratdığı nizamı pozub, yeni bir kosmik və xaotik struktur yaradır. Jerar Jenettin irəli sürdüyü anaxronizm, prolepsis, analepsis anlayışları mətnin zamanına yeni bir baxış bucağı gətirir.

Virciniya Vulfun əsərləri təhkiyə üsulu sayılan şüur axını texnikasının və Jerar Jenettin narrativ zaman anlayışının birlikdə sintezinin obyekti kimi analiz edilə bilər.

## 1. Zaman, şüur axını texnikası və anaxronizm

Fizika və fəlsəfə elmlərinin genişmiqyaslı araşdırma obyektlərindən biri zaman anlayışıdır. Fəlsəfi dünyagörüşündə zamanla bağlı dərin və ilkin məlumatları Platon və Aristotel söyləyiblər. Platon zamanı maddi dünyanın simvolu kimi ifadə edib. Makrokosmosun sonsuz bir mövcudiyyət olmasına görə zamanı da mövcud olma prosesinin sonu olmayan bir periodu kimi qiymətləndirib. Aristotel isə zaman-məkan anlayışlarına hərəkət prosesini əlavə edir. Zaman və aktı bir-birilə bağlı ünsürlər kimi qəbul edir. Anri Berqson zamanı xarici məkanla yanaşı insanın daxilində axtarırdı. Albert Eynşteyn isə nisbilik nəzəriyyəsinə əsaslanaraq zamanın və məkanın sərhədsizliyini vurğulayırdı (4, s. 365).

Modern romanda zamanın fiziki və xronolojik təsvirindən əlavə olaraq anaxronik, yəni xronoloji ardıcıllığa əsaslanmayan bir mahiyyəti özünü göstərdi. Buna əsasən xronoloji təhkiyədən əlavə olaraq anaxronik təhkiyə ortaya çıxır. Anaxronik təhkiyənin

* *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail:* mahammadfatehli@gmail.com
**https://doi.org/10.30546/25194011.2025.14.2.246**

Jerar Jenetin "Təhkiyə diskursu" ("Narrative Discourse: An Essay Method") əsərində anaxronizmlər deyə ifadə etdiyi zaman texnikaları əsasını təşkil edir. O, anaxronizmləri 2 yerə ayırır. Todorovun geriyə dönmə və irəli getmə deyə adlandırdığı texnikalarının əvəzinə Jerar Jenet analepsis (geriyə dönmə), prolepsis (irəliyə dönmə) kimi terminlərdən istifadə edir (1, s. 9).

Analepsisdə təhkiyəçi oxucuya keçmişdə olan bir hadisəni danışaraq xronoloji ardıcıllıqdan kənara çıxır. Geriyə dönərək zamanda oynamalar yaradır. Analepsisləri Jerar Jenet homodieqetik və heterodieqetik olaraq bölür. Prolepsisdə isə oxucuya gələcəkdə olacaq bir hadisə, akt haqqında ilkin məlumat verilir. İrəlidə olacaqlarla bağlı yaradılan təsəvvür informasiya kimi qəbul edənə ötürülür. Prolepsisləri Jerar Jenet daxili (internal) və xarici (external) olaraq 2 yerə bölür (6, s. 99).

*"Bu terminləri daha neytral olan iki digər terminlə əvəz edərək, gələcəkdə baş verəcək bir hadisəni əvvəlcədən nəql etməyi və ya xatırlatmağı prolepsis adlandıracaq, hekayənin müəyyən bir anında daha əvvəl baş vermiş bir hadisəni sonradan xatırlatmağı analepsis kimi təyin edəcək və hekayə ilə nəqlin iki zaman düzəni arasındakı bütün uyğunsuzluq formalarını ifadə etmək üçün ümumi bir termin olaraq anaxronizm terminini saxlayacağıq"* (12, s. 40).

Çağdaş dövrdə insanın fərd və cəmiyyətə münasibəti dəyişdiyi kimi şəxsiyyətin özünüifadə tərzi, üsulu da artıq fərqli şəkildə əks olunur. Bu zaman təhkiyə üsulu və şəkli yeni kontekstdə özünü göstərir. Daxili dünya xarici dünyanı əvəzləyir və ön plana keçir. XX əsrdə yaranan ədəbi nümunələrdə müəlliflər zaman və məkan keçidlərini fiziki qanunlardan kənara çıxaraq subyektiv və psixi dərkin təzahürü şəklində əks etdirir. Təhkiyə üsullarından biri olan şüur axını texnikası daxili aləmin təcəssümü kimi təhkiyə prosesini oxucuya çatdırır. Şüur axını baş verdikdə şüurun mühakimə qabiliyyəti arxa fonda qalır, real zaman və məkandan uzaqlaşıb, daxili mühitə keçid edilir. Xronoloji aktın sferasından kənara çıxılır. Bu prosesdə dildə, zamanda, məkanda dəyişikliklər meydana gəlir. Analepsis və prolepsislər şüur axını yaşayan obrazların dil-nitq ünsürləri ilə oxucuya çatdırılır. Bu xarakterlərlə birlikdə anaxronik təhkiyənin yaratdığı zaman dalğalanmaları baş verir (5).

## 2. Analepsis (geriyə dönmə)

Virciniya Vulf əsərlərində subyektiv zamanı daxili dünyanın əks etdirilməsinə və fərdin dərin şüur qatlarına enə bilmək üçün istifadə edib. Buna görə də obyektiv zamanın istifadə dairəsi azaldılıb (5, s. 40). "Missis Dellouy" romanı fiziki olaraq təqribən 24 saata yaxın bir zamanı əks etdirir. Klarissanın bir gününü keçirtdiyi saatlar və yerlər "Missis Dellouy" əsərində həm fiziki zaman-məkan anlayışı xronoloji olaraq irəliləyir, həm də analepsis vasitəsilə zamanın ardıcıllığı, davamlılığı qırılaraq subyektivlik göstərir. Peterin Klarissa ilə görüşü real zamanda 30 dəqiqəyə, Klarissanın gül alması və Septimusun parkda olması 60 dəqiqəyə, Peterin parkda gəzintisi 15 dəqiqəyə bərabərdir (11, s. 51-52). 15 dəqiqəlik Regent parkda gəzintisində şüur axını ilə geriyə, uşaqlığına qayıdır. Analepsis ilə Peter müəyyən bir dəqiqələrin sərhədlərini əvvəlki illərə geri dönərək aşır. Onun təhtəlşüurunda "balaca Peter" canlanıb, parkda gəzintiyə çıxır (5, s. 79).

*"Bəli, Regent parkı xatırlayırdı; uzun gəzintiləri, solda şar satılan köşkü, bir yerlərində yazılar olan qəribə heykəli. Boş bir oturacaq axtardı"* (8, s. 74).

"Missis Dellouy" romanında Septimusun müharibəni və ölən dostu Evansı, Peterin Klarissaya olan məhəbbətini, Klarissanın gəncliyini xatırlaması analepsisin şüur axını ilə ifadəsinə nümunələrdir. Peterin xatirələrində Klarissa Buortanda yay fəslini keçirdən bir gənc qız olaraq qalırdı. Klarissa ilə bir neçə dəqiqəlik görüşü onu gənclik illərində aşiq olan Peterin zamanına apardı (8). *"Əlləri saçlarında, örtüyü uçuşur, on-*

*ları işarə edib səslənirdi; Severni görmüşdü aşağıda. Ya da meşədəydi... Klarissanın balaca çəhrayı üzü, onları gedərkən izləmək üçün qapıya gələn yaşlı bir qadından su istəyirdi. Həmişə gəzirdilər"* (8, s. 202).

"Missis Dellouy" əsərinin Klarissa obrazı köhnə dostu Salli Setonu vasitəsilə şüurunda canlandırır. Eşqlə bağlı fikirlərini, qadınlara, dostu Salliyə olan münasibətini sorğulamağa başlayır (5, s. 75). Sallinin ingilis qadınlarına oxşamayan görünüşü, Klarissanın özündə olmayan və qısqandığı böyük gözləri, çiçəklərə qarşı xüsusi və həssas davranışı şüur axını ilə keçmişə doğru irəliləyir. *"Fikir Salliyə aiddi təbii – amma qısa müddətdə Klarissa da onun qədər həyəcanlanmışdı – səhər yeməyindən əvvəl yatağında Platon oxuyurdu; Morris oxuyurdu; saatlar boyunca Şelli oxuyurdu"* (8, s. 46).

Virciniya Vulfun "Mayaka doğru" romanında analepsislər özünü göstərir. "Missis Dellouy" əsərinə nisbətən analepsislər "Mayaka doğru" romanında daha az bir kəsimi əhatə edir. "Mayaka doğru" əsəri "Pəncərə", "Vaxt keçir", "Mayak" adlanan üç hissədən ibarətdir. "Pəncərə" və "Mayak" olan bölümlər bloklar sayılır. Bu bloklar arasında dəhliz rolunu "Vaxt keçir" hissəsi yerinə yetirir. "Bir dəhlizlə birləşən iki blok": Virciniya Vulf "Mayaka doğru" əsərini ilk olaraq 1925-ci ildəki bir qeyd dəftərində belə təsəvvür etmişdi (15, s. 240). Dəhlizlər zamanda nizamlı axın yaradır. Amma hər hissənin daxilində şüur axını texnikası ilə anaxronizmlər özünü göstərir.

Lili Briskonun, Remzi ailə üzvlərinin və digər obrazların şüurlarında indiki zamanda keçmişin proyeksiyası yaranır. Lilinin vəfat etmiş xanım Remzini, Ceymsin uşaqlıq illərini, mayaka getmək arzusunu, valideynlərini xatırlaması, Çarlz Tenslinin bir sirk afişasından ailəsi ilə bağlı xatirələri yada salması analepsis texnikası ilə baş verir. Xanım Remzi Tensli ilə gəzərkən sirk afişasını görür və Tensliyə hamı ilə birlikdə sirkə getməyi təklif edir. Bu təklif və sirk ona uşaqlıqda yaşamadığı duyğuları və ailəsini xatırladır. Əczaçı atası, səkkiz uşaqlı böyük ailəsi, kasıblıq ucbatından paltosunun olmaması, 13 yaşından işləyib öz xərclərini qarşılaması Tenslinin zamanda geriyə dönməsinin təzahürləridir (7, s. 12).

Uilyam Benks şüur axını ilə xanım Remzinin 8 uşaq anası olmadan əvvəlki subay zamanlarına geri dönür. Onu cənab Remzi ilə evlənmədən əvvəl olan gənc xanım kimi yada salır. Uilyam Benks qum təpələrini izləyərkən gənclik illərində xanım Remzinin də gəzdiyi küçəni fikirləşməyə başlayır. Sonra isə bir yolda cücələrini qorumaq üçün qanadlarını açan toyuğu və xanım Remzinin onlara olan münasibətini gözünün qabağına gətirirdi. Ona elə gəlmişdi ki, bu hadisədən sonra həmin yolda dostluqları bitdi və xanım Remzi evlənərək dostluqlarına son qoydu (7, s. 21).

Xanım Remzinin corab toxuyarkən yaşadığı analepsislərdən biri xərçəng xəstəliyi ilə mübarizə aparan atasının ölüm anını yenidən yaşaması idi. Uilyam Benksin xanım Remzinin telefonda səsini eşitdikdən sonra simasının gözünün qabağında canlanması zehnində yerləşən keçmiş məlumatlara əsaslandığı üçün geriyə dönmə texnikasına nümunə kimi sayılır və bu iki hadisə ümumi zaman kəsiyinə görə xülasə kimi qısa cümlələrlə icmal şəklində əks olunduğu üçün xarici analepsis kimi qiymətləndirilə bilər (14, s. 10). *"Bu xatirə ardıcıllığa görə "xarici analepsis"dir... Müddət baxımından atasının ölümü bir neçə cümlə ilə ümumiləşdirildiyi üçün "xülasə" xarakterlidir"* (14, s. 10).

Anaxronizmlər şüur axını prosesində katalizator rolunu oynayır. Zehində yaranan zamanın keçidlərini sürətləndirməyə, fiziki məkandan uzaqlaşmasına kömək edir. Bu aktı daha da sürətləndirir və xronoloji aktın ardıcıllığına təsir edir. Analepsis də şüur axını metodunun yardımçı qüvvəsi sayıla bilər. *"Geriyə dönmə texnikası şüur axını texnikasının köməkçisidir. İnsan şüurunun yaşadıqları və gizlətdikləri keçmişə qayıdılmadan üzə çıxa bilməz. Roman zaman baxımından keçmişə, indiyə və gələcəyə açıq bir janrdır"* (5, s. 7).

**3. Prolepsis (irəliyə getmə)**

Prolepsis (irəli getmə) zamanı təhkiyənin indiki zamanında gələcəklə bağlı oxucuya informasiyanın ötürülməsidir. Sanki narrator gələcəkdən gələrək bədii məkana daxil olur və daha sonra gəldiyi zamana qayıdaraq məlumatı qəbul edən oxucunu öz zaman-məkan məfhumunda gözləyir. Şüur axını texnikası ilə prolepsis şüurda ardıcıl şəkildə irəliləyən düşüncənin bəzən bir söz, ifadə, obyekt, akt, simvol, işarə ilə təhtəlşüura enərək aktual zamandan qırılması ilə gələcəyin ilkin təzahürü olur.

Virciniya Vulfun "Missis Dellouy" romanında irəli getmələr daha çox Klarissa və Septimus obrazlarının idrak prosesində görülür. Septimusun intiharı əsərin sonlarına yaxın baş verir. Amma oxucu Septimusun və həyat yoldaşı Rezianın zehinlərində onun ölümü haqqında məlumatlar ötürülür. Rezia Septimusun intihar edəcəyini və yalnız qalacağını başlanğıcda bildirir. Qorxaq insanların, kişilərin intihar etdiyini düşünürdü və onun gözündə Septimus qorxaq deyildi, çünki o, müharibənin ağır şəraitindən sağ çıxmış döyüşçü idi. Anasına belə tək olduğunu söyləyə bilməyən, amma mənəvi olaraq tənhalığı yaşayan Rezia Regent parkında yalnız olduğunu qışqıraraq irəlidə Septimusun ölümü ilə fiziki olaraq da yalnız qalacağını oxucuya çatdırır (8): *"Septimus belə donuq bir şəkildə baxıb, özünü görmədiyi zamanlarda buna tab gətirə bilmirdi və hər şey daha da pis olurdu; səma, ağaclar, oyun oynayan, maşınlarını çəkən, fit çalan uşaqlar, hamısı qorxuncdu! Və Septimus özünü öldürməzdi"* (8, s. 32).

Yuxarıdakı abzasda təsvir olunan Septimusun daxili parçalanma vəziyyəti, onun ətrafdakı reallığı qorxunc görməsinə və özünü itirməsinə səbəb olur; bu dərin psixoloji əzab isə ikinci abzasda onun keçmiş cəsarətindən əsər-əlamət qalmadığını, "köhnə Septimus"dan fərqli bir insan olduğunu açıq şəkildə ortaya qoyur.

*"Bir kişinin intihar edəcəyini deməsi qorxaqlıqdır, amma Septimus döyüşmüşdü; olduqca cəsurdu; ancaq artıq köhnə Septimus deyildi"* (8, s. 32).

Şüur axını texnikası ilə anaxronizmlərin hər iki növü Septimusun müharibə zamanında qalan və bu travmaların öhdəsindən gələ bilməyib, gələcəyinin, ölümünün planını quran zehnində öz əksini tapıb. Ona görə də Septimusun şüur aktında, nitqində həm analepsislər, həm prolepsislər var.

*"Septimus bəzi şeylər görürdü; bir qıjının ortasında gördüyü yaşlı qadının kəlləsi kimi. Amma yenə də istəyəndə xoşbəxt ola bilirdi. Bir avtobusun təpəsində Hampton Courta getdiklərində xoşbəxt idilər. Otların üstündəki sarı və qırmızı çiçəklərin işıq kimi süzüldüyünü demişdi Septimus. Gülmüş, söhbət etmiş, danışmış, hekayələr uydurmuşdur. Sonra birdən: "İndi özümüzü öldürəcəyik,", - demişdi çayın kənarında dayandıqları müddətdə"* (8, s. 88).

Bu prolepsislərin baş verməsi üçün zəmin yaradan qaynaq Septimusun özünü öldürmək üçün fərqli seçimlər düşünüb, amma bir seçimi Blumsberi evinin pəncərəsindən özünü atmaq olduğunu anlayıb, intihar etdiyi səhnədir. Missis Filmerin üstündə "çörək" yazılan, təmiz çörək kəsmək üçün olan bıçaqla ilk özünü öldürmək istəyir. Lakin bu bıçağın təmizliyini öz qanı ilə bulamaq istəmir. Daha sonra qazın qoxusu ilə özünü zəhərləmək istəyir, amma bu müəyyən zaman alacağı üçün qərarından danışır. Pəncərədən əvvəl ülgücdən istifadə ağlına gəlir. Lakin həyat yoldaşı Rezia onun özünü öldürməsindən qorxduğu üçün ülgücləri gizlətmişdi (8, s. 196):*"Pəncərəni açıb, özünü aşağı atmaq olduqca yorucu, zəhmətli və emosional bir işdir. Bu, onlar üçün faciə ola bilərdi, amma özü və Rezia üçün deyildi. (Çünki Rezia onunla birlikdə idi).... Amma son dəqiqəyə qədər gözləyəcəkdi. Ölmək istəmirdi. Həyat gözəldi. Günəş isti idi. Sadəcə insanlar nə istəyirdilər?... Və özünü Missis Filmerin bağçasının dəmirlərindən birdən böyük güclə atdı"* (8, s. 196). Septimusun zehnində həm özünün, həm həyat yoldaşı Rezianın bu faciəyə hazır olmağının əsas səbəbi prolepsislərdir. İrəliyə getmə texnikası ilə Virciniya Vulf həm obrazları, həm də oxucunu akta (intihar hadisəsinə) hazırlayır.

Klarissa Peterlə görüşmədən əvvəl özünün xəstəlikdən sonra yaşlandığını düşünür. Peterin onu görəndə qocalmasını birbaşa dilə gətirib-gətirməyəcəyini və yaxud Klarissanın düşüncələrindən yaşlanmasını anlayıb-anlamayacağını şüur aktında dərk etməyə çalışır (8, s. 50). Bu, anaxronizmlərdən prolepsisə nümunədir. Çünki Peter Klarissa ilə qarşılaşanda onun qocaldığını, dəyişdiyini düşünür və bunu ona bildirməmək üçün daxili dünyasında bir mübarizə aparır. Bundan əlavə olaraq bu mübarizəyə görə utanma hissi keçirdir. Peterin bu düşüncələri ilə keçmişdə Klarissanın şüurunda gələcəyin proyeksiyası qurulduğunu görürük. Klarissa qorxu və narahatlığı ilə zamanda irəli gedərək Peterin gələcəkdəki qənaətini, fikrini, duyğularını oxucuya çatdırır: *"Oturarkən Klarissanın yaşlanmış olduğunu düşündü. O, bunu söyləməməliyəm, deyə keçirdi içindən, çünki, həqiqətən də, yaşlanmışdı. Mənə baxır, deyə düşündü və çox utandı. Halbuki az öncə onun əllərini öpmüşdü"* (8, s. 54-55).

"Mayaka doğru" əsərində prolepsislər analepsislərə görə daha çox istifadə edilib. Mayakla bağlı olan prolepsislər 2 yerə ayrılır. Ceymsin mayaka getmək istəyinin özü irəliyə getmədir. Əsər balaca Ceymsin bir çox fərqli səbəbdən mayaka gedə bilməməyini və bu arzusuna başqa bir zamanda çatmasını görürük. Burada birinci bölümdə olan mayaka çatma istəyinin və alınmamasının yaratdığı əzabın qabarıq vurğulanması "Mayak" hissəsində Ceymsin mayaka atası və bacısı Kamla gedərkən aqressiyasının göstəricisidir. "Pəncərə" hissəsində atası Remzi havanın gözəl olmayacağını dedikdə Ceymsin şüurunda bəzi düşüncələr yaranır: *"O anda əlinin altında balta, bir dəmir çubuq və ya atasının sinəsində bir deşik açıb, orada öldürə biləcəyi hər hansı başqa silah olsaydı, Ceyms həmin an ona sarıla bilərdi"* (7, s. 4). Həmin düşüncələr irəlidə atasının ona mayaka getməyi təklif etdiyi an yenidən yaranır. *"Bıçağı alıb, atasının ürəyinə batırmaq həmişə bir rəmz olaraq ağlında tutduğu bir şey idi"* (7, s. 190). Bu irəli getmə "Mayak" blokundan "Pəncərə" blokuna keçid idi. Digər prolepsis isə "Pəncərə" blokunun sonu olan irəlidən Ceymsin mayaka gedə bilməyəcəyini anası xanım Remzidən fərqli olaraq atasının, Çarlz Tenslinin davamlı dilləndirməsi gələcək haqqında informasiya ötürür (7, s. 7).

Xanım Remzinin həyata baxışında bir kədər duyulurdu. Övladlarını izləyib, onların hər zaman kiçik qalmasını, böyüməmələrini arzulayırdı. Onların körpə olaraq qalmalarını və hər zaman yanında olmaqlarını xəyal edirdi. Cənab Remziyə isə böyüdüklərində xəzinələrini itirəcəklərini söyləyər və bunun səbəbini soruşardı. Həyat yoldaşı isə onu bu bədbin baxış bucağına görə qınayardı (7, s. 60-61). Xanım Remzinin bədbin fikirləri anaxronizmin göstəricisi sayıla bilər. Çünki xanım Remzi gələcək zamanda vəfat edir və həqiqətən də, övladlarının böyüməsinə şahid olmur. Onun gözündə övladları, övladlarının gözündə o, eyni yaşda, zamanda qalır. "Vaxt keçir" dəhlizində sadəcə bir-iki cümlə ilə xanım Remzinin öldüyü qeyd edilir. "Xanım Remzi bir gecə anidən ölmüş olduğu üçün uzanmış olsa da, qolları boş qaldı" (7, s. 132).

**Nəticə**

Yekun olaraq, Jerar Jenetin "Təhkiyə diskursu" əsərində prolepsis və analepsis kimi ayırdığı anaxronizmləri şüur axını texnikası ilə yazılan mətnlərdə anaxronik zamanın formalaşmasında, fiziki məkanın daxili məkanlara parçalanmasında, obrazların şüur aktını əks etdirən nitqlərində görürük. Xronoloji zamanın ardıcıllığı, davamlılığı obyektiv formada sıra ilə irəliləyir. Həm anaxronizmlərdə, həm də şüur axını metodunda bir düz xətt yoxdur. Analepsis geriyə dönərək, prolepsis isə irəliyə gedərək, bu düz xətti parçalara bölür. Virciniya Vulfun "Missis Dellouy" və "Mayaka Doğru" romanları vahid bir süjet xəttinin olmaması, zaman-məkan anlayışının analiz və sintezləri, şüur aktları, təhkiyə üsulu ilə analepsis və prolepsislərin nəzəri tərəfinin praktik ünsürlərini ehtiva edir. "Missis Dellouy" əsərində Klarissa, Peter, Septimus, Rezia, Selli

kimi surətlərin yaşadığı şüur axını ilə iyun ayının bir günündə baş verən hadisələr anaxronizmlər sayəsində zaman və məkan dəyişdirərək gah müharibə illərində, gah bir insanın uşaqlıq, gənclik illərində, gah gələcəkdə davam edir. "Mayaka doğru" romanı üç hissəyə bölünərək, mexanik zamanın irəliləməsini müəyyən bir nizamda çatdırır. Lakin şüur axını Remzi ailəsinin üzvlərində, "Pəncərə" hissəsində yer alan qonaqlarda, dostlarda özünü göstərərək anaxronizmlərin istifadəsinə şərait yaradır. Nəticə olaraq şüur axını texnikası ilə yazılan Virciniya Vulfun "Missis Dellouy" və "Mayaka doğru" romanları həm analepsislərin, həm prolepsislərin geniş şəkildə işləndiyi bədii mətnlərdir.

## ƏDƏBİYYAT


***Türk dilində:***

1. Cuşa H. Adalet Ağaaoğlu'nun Dar Zamanlar Dörtlemesine Anlatıbilimsel Bir Yaklaşım. Doktora Tezi. Çukurova Üniversitesi Sosyal Bilimler Enstitüsü, Adana, 2017, 159 s.
2. Doğan M.N. Ahmet Hamdi Tanpınar'ın Huzur Adlı Romanın Göstergebilimsel Çözümlemesi. Yüksek Lisans Tezi. Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü, Ankara, 2018, 180 s.
3. Durukoğlu S. Yeni Bir Roman Tekniği "İreliye Gidiş Tekniği" ve Varoluş Gerçekleri // Journal of History School, 2019, s. 1909-1918.
4. Elgeren F.Ş. Tasvir (Betimleme) Tekniğinin Anlatının Zamanı ve Ritmine Tesiri Üzerine Bir Tasnif Denemesi // Korkut Ata Türkiyat Araştırmaları Dergisi, 2024, S.: 14, s. 364-385.
5. Konuk B.,B.,N. Virginia Woolf'un "Mrs. Dalloway" ve İnci Aral'ın "Mor" Adlı Romanlarının Teknik ve İçerik Açısından Karşılıştırılması. Yüksek Lisans Tezi. Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü, Eskişehir, 2007, 90 s.
6. Parın K. Anlatının Söylemi: Yöntem Hakkında Bir Deneme // Söylem Filoloji Dergisi, 2018, S.: 3 (1), s. 98-101.
7. Woolf V. Deniz Feneri. İstanbul: Türkiye İş Bankası Kültür Yayınları, 2023, 215 s.
8. Woolf V. Mrs Dalloway. İstanbul: İndigo, 2021, 258 s.

***İngilis dilində:***

9. Abdulrraziq N.M.A., Geedallah A.E.M. Narratological analysis of temporality in novel // International Journal of Community Service & Engagement, 2021, Vol.: 2, No.: 1, pp. 13-19.
10. Bridgeman T. Thinking Ahead: A Cognitive Approach to Prolepsis // The Ohio State University Press, 2005, Vol.: 13, No.: 2, pp. 125-159 s.
11. Dowling D. Mrs. Dalloway: Mapping Streams of Consciousness. Boston: Twayne Publishers, 1991, 151 p.
12. Genette G. Narrative Discource: An Essay in Method. New York: Cornell University Press, 1980, 285 p.
13. Kearns E. Annotation Guidelines for Narrative Levels, Time Features and Subjective Narration Styles in Fiction // Journal of Cultural Analytics, 2021, 4 (6), pp. 53-68.
14. Shehata A. Analysis of Narrative Time in the to Lighthouse // Language and Literature Research, 2023, 7 (66), pp. 443-464.
15. Vauden R.F, İndrusiak E.B. Time and Consciousness Representation in Virginia Woolf' s To the Lighthouse // Estudos Anglo Americanos, 2017, 1 (46), pp. 239-261.

***Резюме***

***Гюнель Махаммадфатехли***

***Роль анахронизмов в потоке сознания (на основе произведений Вирджинии Вулф «Миссис Дэллоуэй» и «К маяку»)***

В данной статье рассматриваются литературные тексты романов Вирджинии Вулф «Миссис Дэллоуэй» и «К маяку». В них применяются как принципы техники потока сознания, так и принципы научно-теоретические аспекты анахронизмов. Раскрывается понятие анахронизма в труде Жерара Женетта «Повествовательный дискурс».

Анахронизм представляет собой повествовательное время. В отличие от физического и механического времени, оно не развивается хронологически. Анахронизмы, которые Женетт классифицирует как аналепсис и пролепсис, широко используются в современных романах. В данной статье дается подробное объяснение характерных особенностей, различий и сходства аналепсиса и пролепсиса.

Исследуется метод потока сознания с точки зрения его возникновения, сущности и роли в творчестве Вирджинии Вулф. Всесторонне анализируются временные колебания, фрагментация и анахронистическая прогрессия техники потока сознания, как во внутреннем, так и во внешнем времени. Оцениваются роль и место анахронизмов в потоке сознания. Понятия времени, анахронизмов и метода потока сознания рассматриваются отдельно, объясняются физические и философские аспекты времени. Анализируются идеи Платона, Аристотеля, Анри Бергсона и Эйнштейна о времени. Также подчеркиваются различия между литературным/повествовательным и физическим временем .

Анахронизмы представляют повествовательное время, в то время как поток сознания — это повествовательная техника. В анахронистическом времени происходят колебания как в форме мыслей в потоке сознания, так и в структурных сдвигах пролепсиса и аналепсиса. В статье рассматриваются как теоретические, так и практические аспекты анахронизмов и потока сознания, подкрепленные примерами.

В романе Вирджинии Вулф «Миссис Дэллоуэй» отсутствует анахронистическое время. Физическое время охватывает конкретные часы. В статье рассматриваются аналепсисы и пролепсисы, выраженные через технику потока сознания. Анахронизмы, присутствующие в сознании Клариссы, Септимуса и Резии, отражены в их внутренних монологах. События, такие как самоубийство Септимуса и размышления Питера о старении Клариссы, служат примерами пролепсиса, в то время как темы войны, любви, детства, радостей и печалей прошлого передаются через аналепсис.

В произведении «К маяку» аналепсисы и пролепсисы, выраженные через технику потока сознания, подтверждаются ссылками. Изображены эффекты воздействия анахронистических временных колебаний на сознание членов семьи Рэмзи и других персонажей. Роль и место анахронизмов рассматриваются через желание отправиться к маяку, негодование Джеймса по отношению к отцу, пессимистические мысли миссис Рэмзи, ее смерть и реакции близких на ее уход. В статье сопоставляется анализ применения аналепсисов и пролепсисов в романах «Миссис Дэллоуэй» и «К маяку».

**Ключевые слова:** *поток сознания, анахронизм, аналепсис, пролепсис, Вирджиния Вулф.*

***Summary***

***Gunel Mahammadfatehli***

***The Role of Anachronisms in a Stream of Consciousness (Based on Virginia Woolf's Mrs. Dalloway and To the Lighthouse)***

This article uses Virginia Woolf's Mrs. Dalloway and To the Lighthouse as literary texts. The principles of both the stream of consciousness technique and the scientific-theoretical aspects of anachronisms have been applied to these texts. The concept of anachronism, as discussed in Gérard Genette's Narrative Discourse, has been clarified.

Anachronism is the narrative time. Unlike physical and mechanical time, it does not progress chronologically. The anachronisms Genette categorizes as analepses and prolepses are widely used in modern novels. This article provides a detailed explanation of the distinctive characteristics, differences, and similarities of analepses and prolepses.

The stream of consciousness method is examined in terms of its emergence, essence, and role in Virginia Woolf's works. The temporal fluctuations, fragmentation, and anachronistic progress of the stream of consciousness technique in both internal and external time are analyzed comprehensively. The role and place of anachronisms within the stream of consciousness are evaluated. The concepts of time, anachronisms, and the stream of consciousness method are discussed separately, and the physical and philosophical aspects of time are explained. The ideologies of Plato, Aristotle, Henri Bergson, and Einstein regarding time are analyzed. The differences between literary/narrative time and physical time are also highlighted.

Anachronisms represent the narrative time, while the stream of consciousness is a narrative technique. In anachronistic time, fluctuations occur both in the form of thoughts within the stream of consciousness and in the structural shifts of prolepsis and analepsis. This article addresses both the theoretical and practical aspects of anachronisms and the stream of consciousness, supported by examples.

In Mrs. Dalloway, there is no anachronistic time. Physical time encompasses specific hours. The article examines analepses and prolepses expressed through the stream of consciousness technique. The anachronisms present in the thoughts of Clarissa, Septimus, and Rezia are reflected in their inner monologues. Events such as Septimus' suicide and Peter's thoughts about Clarissa aging serve as examples of prolepses, while themes such as war, love, childhood, and the joys and sorrows of the past are conveyed through analepses.

In To the Lighthouse, analepses and prolepses expressed through the stream of consciousness technique are substantiated with references. The effects of anachronistic temporal fluctuations on the consciousness of the Ramsay family members and other characters are depicted. The role and place of anachronisms are examined through the desire to go to the lighthouse, James' resentment toward his father, Mrs. Ramsay's pessimistic thoughts, her death, and the reactions of her loved ones to her passing. The application of analepses and prolepses in Mrs. Dalloway and To the Lighthouse is comparatively analyzed.

**Key words**: *A stream of consciousness technique, anachronism, analepses , prolepses, Virginia Woolf.*

Redaksiya heyətinin üzvü fil.e.d., dos. Məmmədova-Kekeç Elmira Fikrət qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.